№ 17-18 (801) 30 sentyabr 2024-cü il Qəzet 1991-ci ildən nəşr olunur www.health.gov.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respblikası Prezidentinin Sərəncamı 2



Nazirlər Kabinetindən Səhiyyə Nazirliyi ilə bağlı yeni Qərar 2



Yeddinci çağırış Milli Məclisin ilk iclasları keçirilib 3

# Dövlət başçısı Kəlbəcərdə «İstisu» Müalicə-İstirahət Kompleksində tikinti işləri ilə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda "İstisu" Müalicə-İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olublar. 2



## Qlobal Fondun və aidiyyəti dövlət qurumlarının nümayəndələri vərəmə dair vəziyyəti müzakirə ediblər

Öz çıxışında Teymur Musayev Qlobal Fondun layihələrinin davamlı olaraq Azərbaycanda həyata keçirildiyini və vərəmlə mübarizədə böyük töhfə verdiyini diqqətə çatdırıb. Nazir həmçinin ölkəmizdə vərəmlə xəstələnmə dinamikasında azalmanın müşahidə olduğunu vurğulayıb.

Səh. 4

## Səhiyyə Nazirliyi əhaliyə qrip əleyhinə vaksinasiya ilə bağlı çağırış edib

Səhiyyə Nazirliyi qrip əleyhinə vaksinasiya ilə bağlı əhaliyə müraciət edib. Müraciətdə bildirilir ki, qarşıdan gələn payızqış mövsümündə ölkə ərazisində kəskin respirator virus infeksiyalarının yayılması gözlənilləndir.



Səh. 6

## COP29 ilə əlaqədar aidiyyəti qurumların görüşü keçirilib



8

*Aforizm*

*Dünyada xeyir iş görməyən insan əbəs yerə yaşayır.*

*C.Fuller*



# Dövlət başçısı Kəlbəcərdə «İstisu» Müalicə-İstirahət Kompleksində tikinti işləri ilə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda "İstisu" Müalicə-İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, yenidən inşa edilən "İstisu" Müalicə-İstirahət Kompleksinin ümumi sahəsi 80 min kvadratmetr təşkil edəcək. Hazırda Kompleksin ərazisində 145 nömrədən ibarət olan hotel binasının, 10 kottecin və 5 inzibati binanın tikinti işləri aparılır.

Kompleksin hotel binasında restoranlar, kafelər, konfrans zalı, boulinq mərkəzi, uşaq əyləncə mərkəzi və müxtəlif əyləncə zonalarının fəaliyyət göstərməsi planlaşdırılır.

Hotel binasının daxilində yerləşən və sahəsi 10 min kvadratmetr təşkil edəcək SPA Mərkəzində 16 müxtəlif təyinatlı açıq və qapalı hovuz, termal hamamlar, müalicəvi termal su vannaları, isti və soyuq su ilə kontrast terapiya hovuzu, termal hidrohovuzlar, təzyiqli su terapiya otağı, buxar otaqları, duz otağı, müalicəvi palçıq ilə prosedur otaqları, masaj otaqları, digər prosedur otaqları və istirahət zonaları nəzərdə tutulur.



Kompleksin SPA Mərkəzinin mineral sularla müalicə, pelioidterapiya (palçıqla müalicə) və klimatoterapiya (iqlim müalicəsi) istiqamətləri üzrə fəaliyyət göstərməsi nəzərdə tutulur.

Belə ki, "Yuxarı İstisu" yatağında yerləşən termal mənbələrdən Almaniyanın aparıcı laboratoriyalarından olan "SGS Institut Fresenius GmbH"ın mütəxəssisləri tərəfindən nümunələr götürülüb və suyun mineral analizi həyata keçirilib. Aparılan analizlərin nəticələrinə və balneoloji rəylərə əsasən İstisu termal mineral suyu fizioloji, metabolik, müalicəvi təsirlərə malikdir, dayaq-hərəkət, sinir, ürək-damar, tənəffüs, endokrin, immun, həzm, böyrək sistemlərinin fəaliyyətinin bərpasına və dermatoloji xəstəliklərin müalicəsinə effektiv təsir göstərir.

Eyni zamanda, pelioidterapiya birləşdirici toxumaların, onurğa və böyrəklərin fəaliyyətini bərpa edir, nevroloji pozuntuların, otorinolarinqoloji və dəri xəstəliklərinin müalicəsinə müsbət təsir göstərir.

Digər fəaliyyət istiqaməti olan klimatoterapiyada isə aerofitoterapiya, aeroterapiya, helioterapiya və landşaftoterapiya metodlarından istifadə ediləcək.




# Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naftalan neftinin çıxarılması, emalı, təchizatı proseslərinin təkmilləşdirilməsi, Naftalan neftindən və ondan hazırlanan preparatlardan istifadənin genişləndirilməsi, eləcə də Naftalan şəhərinin sağlamlıq turizmi şəhəri kimi dünyada tanıdılması məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. altı ay müddətində:

1.1.1. Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılmasını təmin etmək məqsədilə yeni tibbi araşdırmalar aparılmasına və sözügedən məhsullardan tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Naftalan neftinin çıxarılması, emalı, saxlanılması və sanatoriya-kurort müəssisələrinə paylanılması qaydalarını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında" Azərbaycan Respublikası Qanununun 3.4-cü maddəsinə uyğun olaraq, "Naftalan" Kurortu haqqında əsasnaməni iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 28 sentyabr 2024-cü il*

# Nazirlər Kabinetindən Səhiyyə Nazirliyi ilə bağlı yeni Qərar



Nazirlər Kabineti Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısında dəyişiklik edib.

Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, siyahıya Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi əlavə edilib.

# Nazirlər Kabineti dərmanlarla bağlı bir sıra sənədlərə dəyişiklik etdi



Azərbaycan Respublikası Nazirlər Kabineti "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli Qanununun və "Azərbaycan Respublikasının "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 iyun tarixli 81 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında Qərar qəbul edib.

Sənədə əsasən, Nazirlər Kabinetinin əvvəllər qəbul etdiyi bir sıra qərar və qaydalarında uyğunlaşdırma və redaktə xarakterli dəyişikliklər olunub.

# Yeddinci çağırış Milli Məclisin ilk iclasları keçirilib



Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında təşkilati məsələlərə baxılıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi xəbər verib ki, iclasın əvvəlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləyib.

Milli Məclisin ən qocaman deputatı kimi iclasa sədrlik edən Ziyad Səmədzadə Yeddinci çağırış Milli Məclisin ilk iclasını açıq elan edib.

Sonra Milli Məclisin Daxili Nizamnaməsinin müvafiq maddələrinə əsasən, parlamentin Hesablayıcı komissiyası yaradılıb, onun sədri, katibi və üzvləri seçilib.

Deputat Sahibə Qafarova Milli Məclisin sədri, Əli Əhmədov parlament sədrinin birinci müavini, Ziyafət Əsgərov, Musa Qasımlı və Rafael Hüseynov Milli Məclis sədrinin müavinləri seçiliblər.

Parlamentin İntizam Komissiyası yaradılıb.

Sonra deputatlar Milli Məclisin komitələrinin sədrlərini və sədr müavinlərini müəyyənləşdiriblər. Əhliman Əmiraslanov Səhiyyə komitəsinin sədri, Rəşad Mahmudov sədr müavini təsdiq ediliblər.

Parlamentin payız sessiyasının ilk iclasında isə komitələrin tərkibi müəyyənləşib.

Səhiyyə komitəsi deputatlar Günay Əfəndiyeva, Məlahət İbrahimqızı, Kamaləddin Qafarov, Müşfiq Məmmədli, İlham Məmmədov, Soltan Məmmədov, Anatoliy Rafailov, Pərvanə Vəliyevadan ibarət olacaq.

Milli Məclisin VII çağırış payız sessiyasının ilk iclasında sessiyanın qanunvericilik işləri planı da təsdiqlənib. Həmçinin Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası yaradılıb.

# Səhiyyə Nazirliyinin kollektivi Zəfər parkında şəhidlərin əziz xatirəsini yad edib

**Vətən müharibəsinin başlandığı 27 sentyabr tarixi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamına əsasən ölkəmizdə Anım Günü kimi qeyd edilir.**

Qeyd edək ki, dövlət başçısının imzaladığı müvafiq Sərəncama əsasən, Vətən müharibəsində göstərilmiş misilsiz qəhrəmanlığın və qazanılmış möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi yaradılır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun şücaəti, xalq və dövlətin birliyi nəticəsində əldə olunan qələbənin və qəhrəmanlıq salnaməsinin şərəfinə Zəfər parkında xatirə daşı qoyulub.



Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Anım Günü ilə əlaqədar nazirliyin rəhbərliyi və kollektivi Zəfər parkını ziyarət edib. Onlar xatirə daşının önünə gül dəstələri düzərək şəhidlərin əziz xatirəsini ehtiramla anıblar.

# Azərbaycanla Pakistan arasında səhiyyə sahəsində əməkdaşlığın perspektivləri müzakirə edilib

**Səhiyyə Nazirliyində Pakistan İslam Respublikasının ölkəmizdəki səfiri Qasım Mohiuddin ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, səhiyyə naziri Teymur Musayev Qasım Mohiuddini Pakistanın ölkəmizdəki səfiri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib. Azərbaycanla Pakistan arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu vurğulayan nazir iki qardaş ölkə arasında bütün sahələrdə əməkdaşlığın nümunəvi olduğunu deyib. Teymur Musayev dövlətlərarası münasibətlərin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini xüsusi qeyd edib.

Səhiyyə sahəsində əməkdaşlıq məsələlərinə toxunan nazir xatırladıb ki, bu istiqamətdə qarşılıqlı fəaliyyət beynəlxalq müstəvidə Ümumdünya Səhiyyə Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində həyata keçirilir: "Təhsil sahəsində də ikitərəfli əlaqələr dinamik inkişaf edir. Azərbaycan Tibb Universiteti ilə Pakistanın Rifah Beynəlxalq Universiteti arasında fəal əməkdaşlıq mövcuddur. Ötən ilin oktyabrında Bakıda iki universitetin birgə təşkilatçılığı ilə dünyanın müxtəlif ölkələrindən olan mütəxəssisləri vahid platformada birləşdirən tibb təhsili üzrə beynəlxalq konfransın keçirilməsi səmərəli əməkdaşlığın bariz nümunəsidir".

Azərbaycanın səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini bildirib.

Səfir Qasım Mohiuddin vurğulayıb ki, Azərbaycan Pakistan xalqının qəlbində xüsusi yeri olan ölkədir. Səfir hazırda onlarla pakistanlı tələbənin Azərbaycan Tibb Universitetində ali təhsil aldığını diqqətə çatdırıb.

Görüşdə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və genişləndirilməsinin perspektivləri müzakirə edilib. Həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qlobal Fondun və aidiyyəti dövlət qurumlarının nümayəndələri vərəmə dair vəziyyəti müzakirə ediblər



Səhiyyə Nazirliyində ölkəmizdə vərəm əleyhinə fəaliyyətin mövcud vəziyyətinə dair iclas keçirilib.

Səhiyyə naziri Teymur Musayevin rəhbərliyi ilə keçirilən iclasda QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun Portfolio meneceri Olqa Avdeyeva, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İcraçı direktoru Vüqar Qurbanov, Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin rəis müavini İftixar Qurbanov, həmçinin Səhiyyə Nazirliyinin və TƏBİB-in tabeliyindəki aidiyyəti qurumların rəhbər şəxsləri iştirak ediblər.

Səhiyyə naziri Teymur Musayev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında səhiyyə sahəsində aparılan məqsədyönlü islahatlar növbəti mərhələyə keçib: "Uğurlu səhiyyə islahatları üç əsas prinsip üzərində qurulub. Birincisi, insan kapitalının inkişafıdır. İkincisi, bu sahədə bütün fundamental dəyişikliklərin əsas amili səhiyyənin rəqəmsallaşdırılmasıdır. Üçüncüsü isə, səhiyyə sisteminin yeni iqtisadiyyatı və səhiyyənin maliyyələşdirilməsidir. Səhiyyə sisteminin bu 3 sütunu vərəmə qarşı mübarizə addımlarının gücləndirilməsinə də şamil olunur".

Nazirin sözlərinə görə, 2012-ci ildən başlayaraq, Azərbaycan hökuməti tərəfindən vərəmlə mübarizə üzrə dövlət proqramları hesabına dərmanlara davamlı vərəmə qarşı rezistent olmayan dərmanların alınmasına və digər müvafiq xərclərin tam ödənilməsinə başlanılıb. Eyni zamanda, 2021-ci ildən Azərbaycanda səhiyyənin maliyyələşdirilməsinin yeni mexanizmi - icbari tibbi sığorta tətbiq edilir.

Öz çıxışında Teymur Musayev Qlobal Fondun layihələrinin davamlı olaraq Azərbaycanda həyata keçirildiyini və vərəmlə mübarizədə böyük töhfə verdiyini diqqətə çatdırıb. Nazir həmçinin ölkəmizdə vərəmlə xəstələnmə dinamikasında azalmanın müşahidə olduğunu vurğulayıb.

"Əldə etdiyimiz nailiyyətlərə baxmayaraq, vərəmlə mübarizə üzrə Fəaliyyət Planının həyata keçirilməsi üçün uzunmüddətli Strategiya və Yol Xəritəsinin hazırlanmasına ehtiyac var. Vərəmlə mübarizə qlobal məsələdir və biz birlikdə əməkdaşlıq edərək, eyni zamanda, təcrübəmizi bölüşərək daha çox müsbət nəticələr əldə edə bilərik", - deyə səhiyyə naziri fikrini tamamlayıb.

Öz çıxışlarında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev və TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov ölkəmizdə vərəmlə mübarizədə ixtisaslaşmış tibb müəssisələrinin tikildiyini və müasir yanaşmanın tətbiq olunduğunu qeyd ediblər.

İclasda Səhiyyə Nazirliyi Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundova geniş hesabatla çıxış edib. O vurğulayıb ki, Səhiyyə Nazirliyinin Milli Vərəm Proqramı çərçivəsində son 10 ildə xəstələnmənin dinamikasında, eyni zamanda, vərəmdən ölüm hallarının azaldılmasında müsbət dəyişikliklər müşahidə olunur.

İclasın sonunda qarşılıqlı faydalı müzakirələr aparılıb.

# Səhiyyə naziri Qlobal Fondun nümayəndəsini qəbul edib

**Azərbaycanın Səhiyyə Nazirliyində QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun Portfolio meneceri Olqa Avdeyeva ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, səhiyyə naziri Teymur Musayev Azərbaycanın Qlobal Fondla əməkdaşlığa önəm verdiyini qeyd edib. Teymur Musayev Səhiyyə Nazirliyinin Qlobal Fondun missiyaları ilə mütəmadi keçirilən görüşlərinin mövcud əlaqələrin daha da inkişafına böyük dəstək verdiyini vurğulayıb.



Nazir 2005-ci ildən etibarən QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun Azərbaycanda vərəm əleyhinə fəaliyyətin dəstəklənməsində yaxından iştirak etdiyini bildirib. Onun sözlərinə görə, hazırda Azərbaycanda Qlobal Fondun layihələri davamlı olaraq həyata keçirilir və ölkəmizin vərəmlə mübarizəsinə böyük töhfədir.

Həmçinin ötən ilin mart ayında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən Azərbaycanın "malyariyadan azad" ölkə kimi sertifikatlaşdırılması vurğulanıb: "Malyariya ilə mübarizədə əldə edilən uğur həm də ÜST-nin aparıcı mövqe tutduğu tərəfdaşların uzun illər hərtərəfli dəstəyi sayəsində mümkün olub".

Teymur Musayev Azərbaycan Səhiyyə Nazirliyi ilə Qlobal Fond arasında səmərəli əməkdaşlığın uğurla inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Öz növbəsində Qlobal Fondun Portfolio meneceri Olqa Avdeyeva Azərbaycanın "malyariyadan azad" ölkə kimi sertifikatlaşdırılmasını yüksək qiymətləndirib. Onun sözlərinə görə, bu nailiyyət səhiyyə işçilərinin davamlı fədakarlığı, həmçinin malyariya hallarının məqsədyönlü şəkildə qarşısının alınması, erkən aşkarlanması və müalicəsi sayəsində mümkün olub.

Görüşdə həmçinin əməkdaşlığın mövcud vəziyyəti və potensial inkişaf imkanları müzakirə edilib.

# Azərbaycan - Qazaxıstan səhiyyə əməkdaşlığı müzakirə olunub

**Səhiyyə Nazirliyində Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirildiyinə görə, görüşdə səhiyyə naziri Teymur Musayev Azərbaycan və qazax xalqlarının ortaq mədəni-tarixi dəyərlərinin iki ölkə arasında əlaqələrin əsasını təşkil etdiyini vurğulayıb: "Ölkələrimizin ənənəvi dostluq və qardaşlıq münasibətləri əsrlərə söykənir. Dövlət başçıları arasındakı dostluq əlaqələri bütün sahələrdə sıx əməkdaşlığın inkişafına və möhkəmlənməsinə əvəzsiz töhfə verir".

Həmçinin Azərbaycan ilə Qazaxıstan arasında səhiyyə sahəsində ikitərəfli əlaqələrin inkişafı üçün geniş potensialın olduğu vurğulanıb. Nazirin sözlərinə görə, ölkələrimizin ali tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanlar mövcuddur. Eyni zamanda, tibb müəssisələrinin akkreditasiyası və keyfiyyətə nəzarət sahəsində Qazaxıstan təcrübəsinin ölkəmizdə tətbiqi ilə bağlı maraq ifadə olunub.

Səhiyyə naziri əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini bildirib.

Səfir Alim Bayel dövlətlərarası əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayaraq, ölkələrimiz arasında tarixi və ənənəvi dostluq münasibətlərinin mövcudluğunu qeyd edib. Həmçinin Azərbaycanın Səhiyyə Nazirliyi ilə səmərəli əməkdaşlığın qurulmasında maraqlı olduqlarını söyləyib.

Görüşdə oktyabr ayında Şuşada keçiriləcək Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə nazirlərinin IV iclasının Azərbaycan və Qazaxıstan səhiyyə nazirlikləri arasında əlaqələrin dərinləşməsinə töhfə verəcəyi vurğulanıb.

Tərəflər tibb təhsili, bu sahədə peşəkar kadrların hazırlanması və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Ölkəmizdə ilik transplantasiyasının onilliyinə həsr olunan beynəlxalq elmi-praktik konfrans keçirilib

**Azərbaycanda sümük iliyi transplantasiyası əməliyyatları həyata keçirilməsinin 10 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanla yanaşı, Türkiyədən, Rusiya Federasiyasından, Qazaxıstandan və Belarusdan olan ümumilikdə 150-dən çox mütəxəssis iştirak edib.

Tədbirin açılış mərasimində Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) və digər əlaqədar qurumların rəhbər şəxsləri çıxış ediblər.

Mərasimdə çıxış edən **səhiyyə nazirinin müavini Nadir Zeynalov** bildirib ki, sümük iliyinin köçürülməsi əsasən qan xəstəliklərinin müalicəsi üçün tətbiq olunan üsuldur: «Sümük iliyinin köçürülməsi əməliyyatı 70-dən artıq xəstəliyin müalicəsində istifadə olunur. On il ərzində Azərbaycan bu sahədə böyük təcrübə qazanıb. Ölkəmizdə bu xəstələrin əksəriyyəti uşaqlar və yeniyetmələrdir. Sümük iliyinin köçürülməsi üçün Azərbaycanda zəruri maddi-texniki baza və kadr hazırlığı mövcuddur. Bu illər ərzində ölkəmizdə 200-ə yaxın xəstəyə sümük iliyi transplantasiyası həyata keçirilib. Bu müalicənin kontingenti əsasən talassemiyalı xəstələrdir. Müalicələrin nəticəsi də çox yaxşıdır», - deyə nazir müavini bildirib.

Səhiyyə nazirinin müavini bu sahədə problemlərin mövcud olduğunu da qeyd edib, əsas problemin donorun tapılmaması ilə bağlı olduğunu söyləyib: «Dünya üzrə sümük iliyi geniş tətbiq olunan ölkələrdə 20 milyondan artıq donor haqqında məlumat var. İnsanlar arasında donor olmaq haqqında kampaniyaların aparılması vacibdir».



**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müşaviri Nelli Veysova** çıxışında qeyd edib ki, 2023-cü ilin avqust ayından etibarən sümük iliyinin transplantasiyası dəyəri ən yüksək olan xidmət kimi 20 sayda limitlə «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»nə əlavə olunub. «Ümid edirəm ki, gələcəkdə bu istiqamətdə çalışan müalicə müəssisələrinin artırılması, kadr potensialının və maddi-texniki bazanın gücləndirilməsi sayəsində bu say çoxaldılacaq. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən 2023-cü ildə transplantasiya sahəsində dərman vasitələrinin alınması üçün 763 min manat dəyərində müqavilə bağlanıb. Burada allogen transplantasiyaya 70 min manat, autogen transplantasiyaya 31 min manat sərf olunub. İcbari tibbi sığorta ilə 2023-cü sentyabrından bu günə kimi 6 cərrahi əməliyyat keçirilib. Bunların 3-ü allogen, 3-ü isə autogen xəstələr olub. Bu məqsədlə 259 min manat vəsait Milli Hematologiya və Transfuziologiya Mərkəzinə köçürülüb», - deyə N.Veysova qeyd edib.

**TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov** qurumun tabeliyində fəaliyyət göstərən Yeni Klinikada da transplantologiya şöbələrinin yaradıldığını və onların bəzilərinin fəaliyyəti üçün icazələr alındığını qeyd edib. «Hesab edirəm ki, Yeni Klinikada sümük iliyinin transplantasiyası şöbəsi 2025-ci ildə istifadəyə veriləcək. Ölkədə bu gün qan xəstəlikləri ilə bağlı dörd dövlət proqramı fəaliyyət göstərir. Həmin dövlət proqramları çərçivəsində ölkədə ən müasir protokollara uyğun dərman preparatları ilə müalicələr aparılır. Qan xəstəlikləri ilə mübarizədə radikal müalicə üsulu isə sümük iliyinin köçürülməsidir. Artıq Talassemiya Mərkəzində 200-ə yaxın əməliyyat icra olunub və nəticələri də çox uğurludur. Biz də TƏBİB olaraq bu sahənin inkişafına daim hazırıq», - deyə icraçı direktorun müavini vurğulayıb.

**Səhiyyə Nazirliyi Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri Yeganə Abbasova** sümük iliyi transplantasiyasının həyata keçirildiyi 10 il ərzində ölkəmizdə hər il 20-30 belə əməliyyatın icra olunduğunu bildirib. Qeyd edib ki, hər il dövlət proqramı çərçivəsində 30-a yaxın böyrək transplantasiyası əməliyyatı icra edilir.

Y.Abbasova əlavə edib ki, sümük iliyi transplantasiyası xidmətlərinin təkmilləşdirilməsi layihəsi çərçivəsində 2023-cü ilin iyul ayında 25 Azərbaycan vətəndaşı Türkiyəyə ilik köçürülməsi üçün göndərilib və əməliyyatlar uğurla icra olunub. «Bundan əlavə, 2023-cü ilin avqustun 4-də 150 böyrək, 100 qaraciyər və 20 sümük iliyi transplantasiyası əməliyyatı "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nə daxil edilib. 2022-ci ilin dekabrın 4-dən, yəni bizim mərkəzin fəaliyyətə başladığı dövrdən etibarən Nazirlər Kabinetinin tətbiq etdiyi hüquqi sənədlərlə 22 böyrək transplantasiyası əməliyyatı icra olunub», - deyə Y.Abbasova vurğulayıb.

Nərkəzin rəhbəri çıxışında həmçinin donor olmaq istəyənlərə çağırış edib.

Daha sonra çıxış edən **Səhiyyə Nazirliyinin Milli Hematologiya və Transfuziologiya Mərkəzinin direktor müavini Səhər İsmayılova** statistik göstəriciləri konfrans iştirakçılarının diqqətinə çatdırıb. O bildirib ki, 2014-cü ildən bu günə qədər ilik tranplantasiyası uğurla icra edilmiş 191 xəstədən 159 nəfəri talassemiya xəstəsi olub. S.İsmayılova mərkəzin ən böyük göstəricisinin 2022-ci ildə qeydə alındığını, həmin il 29 xəstənin əməliyyata götürüldüyünü vurğulayıb: «Bu il əməliyyat olunacaq xəstə sayını 30-a qədər artırmaq niyyətindəyik. Transplantasiya olunan 159 talassemiyalı xəstənin 153-ü hazırda yaşayır. Bu, çox ciddi bir rəqəmdir. Yalnız 6 nəfər dünyasını dəyişib. Əməliyyat olunanlardan 143 xəstə sağlam şəkildə həyatını davam etdirir və tam olaraq xəstəlikdən sağalıblar. 10 xəstədə transplant qopması müşahidə olunub və bu xəstələr də hazırda həyatdadırlar. Amma 10 xəstənin xəstəliyi yenidən geri qayıdıb», - deyə direktor müavini bildirib.

Açılış mərasimindən sonra beynəlxalq konfrans öz işini panel sessiyalarla davam etdirib.

# ATU-da «Cərrahi platforma» tədris portalının təqdimatı keçirilib



**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında (TCK) “Cərrahi platforma” adlı çoxdilli və çoxfunksiyalı tədris portalının təqdimatı keçirilib.**



Universitetin mətbuat xidmətinin verdiyi məlumata görə, ATU-nun I Cərrahi xəstəliklər kafedrasının və İnformasiya Texnologiyaları İnstitutunun əməkdaşları tərəfindən hazırlanan portal tələbələr və rezidentlər üçün nəzərdə tutulub.

Təqdimat mərasimində çıxış edən **ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov** yeni formatda hazırlanmış portalın cərrahi xəstəliklərin tədrisində tələbələr üçün çox faydalı olacağını bildirib. O, portalda ümumi cərrahiyyəyə dair məlumatlarla yanaşı, həmçinin patologiyalar və cərrahiyyənin müxtəlif istiqamətləri üzrə müasir biliklərin yerləşdirildiyini deyib.

**AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev** təhsildə keyfiyyətin artırılmasında rəqəmsal proqramların mühüm rol oynadığını qeyd edib. Təhsil və elmin inkişafında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nümunəsi kimi “Cərrahi platforma”nın bütün istifadəçilər üçün xeyirli olacağından əminliyini bildirib.

**Professor Məmməd Kərimov və ATU-nun Şüa diaqnostikası kafedrasının müdiri, professor Məlahət Sultanova** çıxış edərək, elektron elmə keçid sahəsində bu cür platformaların tətbiqinin vacibliyindən danışıblar.

Daha sonra **AMEA-nın müxbir üzvü, ATU-nun I Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov** tədbir iştirakçılarına saytı təqdim edib. Əsasən 3 bölmədən ibarət olan portalda istifadəçilər anatomiya və fiziologiya, diferensial diaqnostika, əməliyyatlara dair müxtəlif məlumatlarla tanış ola bilərlər. Platformada müxtəlif kateqoriyalar üzrə axtarışın tətbiqi istifadəçilərin axtardıqları məlumatları daha tez və rahat əldə etməsinə yardımçı olacaq.

# Şuşada “Mamalıq və ginekologiyanın aktual problemləri” konfransı keçirilib



Şuşa şəhərində Səhiyyə Nazirliyinin dəstəyi, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu (ADHTİ) və Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun təşkilatçılığı ilə ilk dəfə olaraq “Mamalıq və ginekologiyanın aktual problemləri” mövzusunda konfrans keçirilib.

Həkimləri Təkmilləşdirmə İnstitutundan verilən məlumata görə, konfransda ADHTİ-nin Mamalıq və ginekologiya kafedrasının müdiri professor Leyla Rzaquliyeva “Uşaqlıq boynu patologiyalarına müasir yanaşma”, kafedranın baş laborantı Günel Əfəndiyeva “Zahılıq qanaxmaları zamanı düzgün alqoritm” mövzusunda məruzələrlə çıxış ediblər.

Konfrans bitdikdən sonra iştirakçılar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun qəhrəmanlığı hesabına azad olmuş Xankəndi və Agdam şəhərlərini də ziyarət edib, erməni vandallarının törətdiyi cinayətlərdən sonra aparılan böyük quruculuq işləri ilə tanış olublar.

# Azərbaycan və Ukrayna səhiyyə sahəsində əməkdaşlığı gücləndirir



**Azərbaycanın göstərdiyi dəstəyə, xüsusən də müharibə dəhşətlərindən zərər çəkmiş uşaqların reabilitasiyadan keçməsinə imkan yaradan layihələrə və göstərilən humanitar yardıma görə Azərbaycan dövlətinə təşəkkür edirəm.**

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev ilə görüşündə Ukraynanın səhiyyə naziri Viktor Lyaşko söyləyib.

“Ukraynanın səhiyyə sistemi müharibə səbəbindən görünməmiş çətinliklərlə üzləşir, lakin inkişaf etməkdə davam edir. Bu gün biz Azərbaycandan olan həmkarlarımız və tərəfdaşlarımızla tibb sənayesində əməkdaşlığın gücləndirilməsi və prioritet istiqamətləri haqqında danışırıq. Biz öz təcrübəmizi tərəfdaşlarla bölüşməyə hazırıq”, - deyə nazir əlavə edib.

Görüşdə tərəflər Azərbaycan və Ukrayna arasında səhiyyə sahəsində əməkdaşlığın dərinləşdirilməsi, həmçinin həkimlər arasında təcrübə mübadiləsinin daha da genişləndirilməsi, tibb müəssisələri ilə tibb universitetləri arasında qarşılıqlı əlaqənin gücləndirilməsi barədə razılığa gəliblər.

Səfir Seymur Mərdəliyev öz növbəsində ölkəmizin bundan sonra da Ukraynaya humanitar yardımları davam etdirəcəyini deyib. Bildirib ki, Azərbaycan müharibənin ilk günlərindən Ukraynaya öz yardımlarını edib.

Tərəflər gələcək əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında razılığa gəliblər.

**Emil HÜSEYNLİ,**
**AZƏRTAC-ın xüsusi müxbiri**
*Kiyev*

# Səhiyyə Nazirliyi əhaliyə qrip əleyhinə vaksinasiya ilə bağlı çağırış edib

Səhiyyə Nazirliyi qrip əleyhinə vaksinasiya ilə bağlı əhaliyə müraciət edib.

Müraciətdə bildirilir ki, qarşıdan gələn payız-qış mövsümündə ölkə ərazisində kəskin respirator virus infeksiyalarının yayılması gözlənilməndir.

Bununla əlaqədar, əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əks-epidemik tədbirlərin gücləndirilməsi məqsədilə Səhiyyə Nazirliyi tərəfindən ölkəyə mövsümi qrip əleyhinə “Abbott” şirkətinin istehsalı olan tam təhlükəsiz və yüksəkkeyfiyyətli vaksin preparatları gətirilib. Səhiyyə Nazirliyinin müvafiq əmrinə əsasən, 2024-cü il sentyabrın 10-dan vaksinasiyaya başlanılır.

Respirator xəstəliklərə görə yüksək risk qrupuna aid edilən səhiyyə işçilərinin, hamilə qadınların və xroniki tənəffüs sistemi xəstəlikləri olan 6 aylıqdan yuxarı olmaqla bütün yaşlar üzrə əhalinin qış mövsümündə qripə qarşı peyvənd olunması xüsusilə vacibdir.

Həmçinin bu ilin noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ölkəmizdə keçirilməsi ilə bağlı dünyanın müxtəlif ölkələrindən Azərbaycana çoxsaylı qonaqların səfəri gözlənilir.

Əhalinin sağlamlığının qorunması və kəskin respirator virus infeksiyalarına yoluxma hallarının qarşısının alınması məqsədilə Səhiyyə Nazirliyi sözügedən əhali qrupları ilə yanaşı, COP29-la bağlı tədbirlərə cəlb olunan vətəndaşları da mövsümi qripə qarşı peyvənd olunmağa çağırır.

Qripə qarşı peyvənd olunmaq istəyən şəxslər yaşayış və ya iş yeri üzrə əhaliyə ambulator-poliklinik xidmət göstərən dövlət tibb müəssisələrinə müraciət edə bilərlər.

# Ağciyər Xəstəlikləri İnstitutunun 80 illiyinə həsr olunan beynəlxalq konfrans keçirilib

**Bakıda Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun yaranmasının 80 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.**





AZƏRTAC xəbər verir ki, konfransda ftiziatriya və pulmonologiya sahəsində yerli və xarici ölkələrdən, o cümlədən Türkiyə, Rusiya Federasiyası, Gürcüstan və digər ölkələrdən aparıcı mütəxəssislər tənəffüs sistemi xəstəliklərinin müayinə və müalicəsinə aid son elmi nailiyyətlər haqqında məruzələr ediblər.

Məlumat verilib ki, Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu 1944-cü ildə, o dövrdə əhalinin sağlamlığı üçün ən ciddi təhlükələrdən biri olan vərəmlə mübarizə məqsədilə yaradılıb. Həmin vaxtdan bu günə kimi institut tək vərəmin tədqiqindən ağciyərin digər infeksion və qeyri-infeksion xəstəlikləri də (ağciyərlərin bronxobstruktiv xəstəliyi, bronxial astma və digər) daxil olmaqla, geniş spektrli tənəffüs xəstəliklərinin diaqnostikası və müalicəsi üçün müxtəlif üsulların işlənib hazırlanmasına qədər uzun bir yol keçib. Bu illər ərzində institut Azərbaycanın aparıcı elmi-tədqiqat və təhsil mərkəzinə çevrilərək, dünya elminə mühüm töhfələr verib.

Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu beynəlxalq layihələrdə fəal iştirak edir, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə, digər beynəlxalq qurumlar və təşkilatlarla əməkdaşlıq edir. İnstitut vərəm və tənəffüs orqanlarının digər xəstəliklərinin diaqnostikası üçün molekulyar metodların tətbiqində liderə çevrilib. İnstitutun mühüm nailiyyəti beynəlxalq standartlara uyğun sertifikatlaşdırılaraq, Milli İstinad Laboratoriyasının yaradılması olub.

İnstitutun elmi tədqiqatları cari problemlərin həllinə, o cümlədən vərəmin dərmana davamlı formalarına qarşı mübarizəyə, COVID-19 və onun vərəmlə yanaşı xəstəlikləri kimi mürəkkəb xəstəliklərin müalicə strategiyalarının işlənib hazırlanmasına yönəlib.

Konfransda respirator xəstəliklərin, o cümlədən multirezistent vərəmin, yoluxucu və xroniki ağciyər xəstəliklərinin diaqnostikası və müalicəsinin aktual problemləri haqqında müzakirə aparılıb. Müasir molekulyar-genetik diaqnostika üsullarına və onların praktikada tətbiqinə xüsusi diqqət yetirilib.

Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun 80 illik yubileyinə həsr olunmuş konfrans bilik və təcrübə mübadiləsi, eləcə də yeni elmi əlaqələrin qurulması üçün unikal bir platformaya çevrilib. Konfransa ölkədə vərəmin müalicəsi ilə məşğul olan tibb müəssisələrinin rəhbər və aparıcı mütəxəssisləri dəvət olunub. Konfrans iştirakçıları arasında Səhiyyə Nazirliyinin elmi tədqiqat institutlarının rəhbərləri, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun, Azərbaycan Tibb Universitetinin, ÜST-nin və Qlobal Fondun aparıcı əməkdaşları, ümumilikdə 100-dən çox alim və həkim iştirak edib.

Konfrans ölkədə respirator təbabətin gələcək inkişafına və əhalinin sağlamlığının yaxşılaşdırılmasına təkan verəcək.

## Avqust ayı ərzində 44 aptekdə yoxlama aparılıb

**Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi (AEM) tərəfindən 2024-cü ilin avqust ayı ərzində Bakı şəhəri və digər rayonlar üzrə ümumilikdə 44 aptekdə yoxlama aparılıb. AEM-dən verilən məlumata görə, bunlardan 31 aptekdə yoxlamalar planlı, 13 aptekdə isə plandankənar keçirilib.**

Yoxlamalar zamanı 2 aptekdə nöqsanlar aşkarlanıb. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 452.4-cü maddəsi üzrə protokollar tərtib edilib.

## Bioloji aktiv qida məhsulları reseptə yazılmamalıdır

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi Azərbaycanda fəaliyyət göstərən özəl tibb müəssisələrinə müraciət ünvanlayıb.**

Müraciətdə deyilir ki, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 14-1.1-ci maddəsinə əsasən, bioloji aktiv qida məhsullarının (BAQM) reseptə yazılması qadağan olunub. Həmçinin həmin Qanunun 14-1.3-cü maddəsinə əsasən, bioloji aktiv qida məhsullarının üzərində və istifadə təlimatlarında (içlik vərəqlərində) əmtəə nişanı adının yazıldığı hər yerdə əmtəə nişanı adının altında onunla eyni ölçüdə və şriftdə olan ağ fonda qara rəngli aydın, seçilən, qalın və böyük hərflərlə, silinməsi mümkün olmayan tərzdə çap olunmuş "DƏRMAN VASİTƏSİ DEYİLDİR!" sözlərinin yazılması məcburi xarakter daşıyır.




Müraciətdə bildirilir: "Bu sahədə qanunvericiliyin tələblərinə riayət edilməsi və neqativ hallara səbəb ola biləcək amillərin aradan qaldırılması məqsədilə özəl tibb müəssisələrində resept yazmaq hüququna malik tibb işçiləri tərəfindən buraxılan reseptlərdə bioloji aktiv qida məhsullarının yazılmasının qarşısının alınması üçün Analitik Ekspertiza Mərkəzinin səlahiyyətləri çərçivəsində maarifləndirici, preventiv və qanunvericiliklə müəyyən olunmuş inzibati tədbirlərin görülməsi nəzərdə tutulur.

Nəzərinizə çatdırırıq ki, elektron resept sisteminə keçid ilə əlaqədar özəl tibb müəssisələrində və aptek təşkilatlarında plan üzrə və plandankənar yoxlamaların aparılması zamanı həmin müəssisələrdə resept yazmaq hüququna malik tibb işçiləri tərəfindən yazılan reseptlərdə bioloji aktiv qida məhsullarının yazılması, həmçinin belə reseptlər əsasında BAQM satışı hallarının aşkar edilməsi üçün nəzarət gücləndiriləcək".

# Səhiyyə Nazirliyi Zəngilanda ağciyər xəstəliklərinin erkən aşkarlanması üçün aksiya təşkil edib



**Səhiyyə Nazirliyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, müxtəlif xəstəliklərin aşkarlanması ilə bağlı əhalinin kompleks müayinələrin aparılması, tibbi konsultasiyaların verilməsi və sağlamlıq məmnunluğunun təmin edilməsi məqsədilə işğaldan azad olunan ərazilərdə silsilə tədbirləri davam etdirir.**



Nazirliyin mətbuat xidmətindən bildirilib ki, bu tədbirlər çərçivəsində nazirliyin təşkilatçılığı ilə keçirilən növbəti belə aksiya Zəngilan rayonunun Ağalı kəndində baş tutub. Aksiya zamanı Səhiyyə Nazirliyi Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun (ETAXİ) tibb heyəti tərəfindən kənd əhalisinə tibbi xidmətlər göstərilib. İnstrumental-diaqnostik müayinələr İnstitutun xüsusi təchiz olunan Səyyar klinikasında aparılıb. Tibbi avadanlıqların tam dəsti ilə təchiz edilən klinikalar modul avadanlıq konsepsiyası sayəsində mobil təcrübədə müxtəlif məqsədlər üçün istifadə oluna bilər. Belə ki, bu klinikalar ucqar ərazilərdə yaşayan əhali üçün müxtəlif diaqnostik prosedurlardan başlayaraq, ilkin tibbi yardım göstərməyə qədər istifadə edilir.

Aksiya zamanı ETAXİ-nin pulmonoloq, ftiziatr, allerqoloq, kardioloq, rentgenoloq, şüa-diaqnostika və laboratoriya həkimlərindən ibarət briqadası tərəfindən müxtəlif instrumental-diaqnostik üsullardan istifadə edilməklə ağciyərin flüoroqrafiyası, elektrokardioqrafiya, exokardioqrafiya, USM müayinəsi, spirometriya və qan qazının müayinəsi həyata keçirilib. Eləcə də vərəm üçün ixtisaslaşdırılmış müayinələr (bəlğəm analizi və latent vərəm infeksiyasının diaqnostikası üçün dəri testləri) aparılıb.

Müayinələr nəticəsində səhhətində problem aşkarlanan şəxslərə tibbi məsləhətlər verilib və müvafiq müalicə təyin olunub.

Aksiya zamanı 280-ə yaxın Zəngilan sakini müayinələrdən keçib.

Tədbirdə yerli əhaliyə ağciyər xəstəlikləri və profilaktikası haqqında faydalı məlumatlar da verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Səhiyyə Nazirliyi işğaldan azad olunmuş digər ərazilərdə də davamlı olaraq maarifləndirici tədbirlərin və müayinə aksiyalarının keçirilməsini nəzərdə tutur.

# Səhiyyə Nazirliyi Ağdərədə əhali üçün səyyar müayinələr təşkil edib



**"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən vətəndaşlar arasında davamlı olaraq müxtəlif tibbi aksiyalar təşkil edilir. Bu tədbirlər zamanı müayinələr, həkim konsultasiyaları ilə yanaşı, sağlamlığın təşviqi istiqamətində maarifləndirici görüşlər keçirilir.**

Növbəti belə tədbir Ağdərə rayonunun Talış kəndində baş tutub. Nazirliyin Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun həkim heyəti tərəfindən əhali üçün səyyar müayinələr təşkil olunub.

Aksiya çərçivəsində Tibbi Bərpa İnstitutunun artroloq, nevroloq, fizioterapevt-reabilitoloq və tibb bacısından ibarət heyət əhaliyə tibbi baxış keçirib. Eyni zamanda, nevroloqlar tərəfindən EMQ (elektromioqrafiya) və EEQ (elektroensefaloqrafiya) müayinələri aparılıb. Müayinələr zamanı səhhətində problem aşkarlanan sakinlərə peşəkar tibbi məsləhətlər verilib və müvafiq müalicələr təyin olunub.

Orta yaşlı əhalidə onurğa, sinir, dayaq-hərəkət, həmçinin ümumi serebrovaskulyar xəstəliklərin aşkar edilməsi, 16-65 yaşlı əhali arasında skolioz və digər vertebrogen problemlərin diaqnostika və bərpası üzrə müayinələr aparılıb.

İnstitutun fizioterapevt və reabilitoloqları tərəfindən medikamentoz terapiya ilə yanaşı, həm təbii, həm də süni fiziki faktorları fərdi olaraq təyin etməklə, sağlamlığın erkən əldə olunmasına kömək edən profilaktik tövsiyələr verilib.

Aksiya zamanı 70-dən artıq vətəndaş müayinələrdən keçib.

# COP29 ilə əlaqədar aidiyyəti qurumların görüşü keçirilib



**Səhiyyə Nazirliyində COP29 ilə əlaqədar aidiyyəti qurumların birgə koordinasiyalı fəaliyyətinin təşkili ilə bağlı görüş keçirilib.**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının tapşırığına əsasən təşkil olunan görüşdə Səhiyyə Nazirliyi ilə yanaşı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), "Azərbaycan Hava Yolları" QSC və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının səlahiyyətli nümayəndələri iştirak ediblər.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirildiyinə görə, toplantıda bu ilin noyabr ayında COP29 beynəlxalq tədbirinin ölkəmizdə keçirilməsi ilə əlaqədar aidiyyəti qurumların birgə koordinasiyalı fəaliyyətinin təşkili üçün hazırlanmış tədbirlər planı müzakirə olunub.

Hazırda bir çox ölkələrdə meymunçiçəyi virusunun sürətlə yayılması hallarını nəzərə alaraq, Azərbaycan ərazisində profilaktik tədbirlərin həyata keçirilməsinin zəruriliyi vurğulanıb.

Yekunda rəy və təkliflər dinlənilib, görüləcək fəaliyyətlərə dair vahid yanaşma müəyyənləşdirilib.

# İndiyədək vətəndaşlara elektron qaydada verilmiş tibbi arayışların sayı açıqlanıb

**"Vətəndaşlara elektron sağlamlıq kartı üzrə məlumatların verilməsi" elektron xidmətinə 2023-cü ildə 10 477, bu ilin iki rübündə isə 5 540 vətəndaş müraciət edib.**

Bu barədə Səhiyyə Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzindən məlumat verilib. Bildirilib ki, "Vətəndaşlara elektron sağlamlıq kartı üzrə məlumatın verilməsi" elektron xidməti Elektron Səhiyyə portalı üzərindən vətəndaşlara təqdim edilir.

"Vətəndaşlar xidmətə müraciət etmək üçün www.e-health.gov.az <http:www.e-health.gov.az> portalı və ya Elektron Səhiyyə mobil tətbiqindən "ASAN Login" vasitəsilə daxil olduqdan sonra müvafiq xidmətə keçid edirlər. Bu elektron xidmət üzrə vətəndaşlar analizlər, peyvəndlər, dispanser müşahidələr, tibb müəssisələrinə gəlişlər, reseptlər barədə elektron formada təqdim edilən tibbi məlumatlarını izləyə bilirlər.

Hazırda digər qurumlar tərəfindən işlənilən məlumatların sistemə inteqrasiyası prosesi davam edir. Bu səbəbdən də məlumatların bir qismi sistemdə tam şəkildə əks olunmur. Eləcə də, reseptlər bölməsində indiki mərhələdə yalnız imtiyazlı pasiyentlərə yazılan reseptlər əks olunur. İnteqrasiya prosesi tam başa çatdıqdan sonra vətəndaşların istər özəl, istərsə də dövlət tibb müəssisələri tərəfindən hazırlanan məlumatları müvafiq elektron xidmət vasitəsilə əlçatan olacaq", - deyə məlumatda qeyd edilib.

Həmçinin bildirilib ki, vətəndaşlara tibbi arayışlar müvafiq qurumlar tərəfindən təqdim edildikdən sonra elektron qaydada sistemdə əks olunur. Tibbi arayış xidmətinin tətbiq olunduğu 2015-2016-cı ildən bu günədək 506 910 nəfərə 965 721 "Forma 88", 311 955 nəfərə 344 005 "Forma 86", 918 939 nəfərə 1 058 035 "Forma 83", 1 920 528 nəfərə "Forma 103" (doğum haqqında tibbi şəhadətnamə), 294 816 nəfər üçün "Forma 106" (ölüm haqqında tibbi şəhadətnamə), 19 967 nəfər üçün "Forma 1062" (perinatal ölüm) tibbi arayışları təqdim edilib.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

Pediatriya kafedrasının professoru (t.ü.e.d., professor)
Ailə təbabəti kafedrasnın professoru - 0,5 (t.ü.e.d., professor)
Ümumi və plastik cərrahiyyə kafedrasının professoru - 0,5 (t.ü.e.d., t.ü.f.d., professor)
Ümumi və plastik cərrahiyyə kafedrasının dosenti - 0,25 (t.ü.f.d., dosent)
Ümumi və plastik cərrahiyyə kafedrasının assistenti - 0,25 (t.ü.f.d.)
Ümumi və plastik cərrahiyyə kafedrasının assistenti - (t.ü.f.d.)
Ümumi və plastik cərrahiyyə kafedrasının assistenti - 0,25 (t.ü.f.d.)
Şüa terapiyası kursu ilə şüa diaqnostikası kafedrasnın dosenti - (t.ü.f.d., dosent)
Şüa terapiyası kursu ilə şüa diaqnostikası kafedrasnın assistenti - 0,5 (t.ü.f.d.)
Anesteziologiya və reanimotologiya kafedrasnın dosenti - 0,5 (t.ü.f.d.)
Anesteziologiya və reanimotologiya kafedrasnın assistenti - 0,5 (t.ü.f.d.)
Ortodontiya kafedrasnın dosenti - (t.ü.f.d.)
Hematologiya kafedrasının assistenti - (t.ü.f.d.)
Ailə təbabəti kafedrasının assistenti

*Üuvan: Tbilisi pr, 3165 məh. Tel:431-01-82*

### «Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu» PHŞ

Rentgen-texnik - 3.0
Tibb bacısı (qardaşı) - 4.0 (Ttravmatologiya şöbəsi)
Tibb bacısı (qardaşı) - 2.0 (Əl cərrahiyyəsi və yaralar şöbəsi)
Əməliyyat tibb bacısı (qardaşı) - 1.0
Sterilizasiya tibb bacısı (qardaşı) - 1.0
Tibb bacısı (qardaşı) - 1.0 (Qəbul şöbəsi)
Şöbə müdiri - 1.0 (Ortopediya üzrə elmi şöbə)
Böyük elmi işçi - 2.0 (Travmatologiya üzrə elmi şöbə)
Şöbə müdiri - 1.0 (Əl cərrahiyyəsi və yaralar üzrə elmi şöbə)
Şöbə müdiri - 1.0 (Uşaq travmatologiya və ortopediya üzrə elmi şöbə)
Aparıcı elmi işçi - 1.0 (Uşaq travmatologiya və ortopediya üzrə elmi şöbə)
Böyük elmi işçi - 1.0 (Uşaq travmatologiya və ortopediya üzrə elmi şöbə)
Şöbə müdiri - 1.0 (Elmi-tibbi informasiya şöbəsi)

*Ünvan: A.Səhhət küç., 32. Tel:440-33-86*

### Milli Onkologiya Mərkəzi

***Kimyaterapiya bölməsinə:***
Elmi işçi - 1.0
***Onkohematologiya bölməsinə:***
Elmi işçi - 1.0

*Ünvan: H.Zərdabi küç., 79b Tel:537-11-08*

### «Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi» PHŞ

Tibb bacısı (qardaşı) - 4.0
Laborant -1.0

*Ünvan: Şərifzadə küç., 196. Tel: 432-00-84*

### Respublika Uşaq Sanatoriyası

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: Buzovna qəs. Tel:453-31-41*

### «Elmi-Tədqiqat Kardiologiya İnstitutu» PHŞ

Tibb bacısı (qardaşı) - 1.0 (Xroniki ürək çatışmazlığı şöbəsi)
Tibb bacısı (qardaşı) - 1.0 (Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsi)
Laborant - 1.0 (Laboratoriya şöbəsi)

*Ünvan: F.X.Xoyski küç., 101 «A» Telefon: 564-54-99*

### ATU-nun Onkoloji Klinikası

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: S.Vurğun küç. Tel: 541-59-76*

### GəncəTibb Kolleci

Daxili xəstəliklər fənni üzrə müəllim - 1.0

*Ünvan: İ.Qaibov küç.,14. Tel: (02225) 6-07-39*

### «Respublika Narkoloji Mərkəzi» PHŞ

Feldşer-laborant - 1.0

*Ünvan: Maştağa qəs. Ş.Hüseyn küç., 71 Telefon: 558-75-16*

### «Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu» PHŞ

Elmi işçi - 1.0 (Gen mühəndisliyi və biotexnolgiya şöbəsi. Kimyəvi terapevtik preparatların tədqiqatı bölməsi)

*Ünvan: M.Topçubaşov küç., 216. Tel: 594-78-34*

### Göygöl Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Sanitar-feldşer - 2.0
Feldşer-laborant - 3.0
Həkim-parazitoloqun köməkçisi - 1.0
Təlimatçı-dezinfektor - 1.0 (parazitologiya üzrə)
Təlimatçı-dezinfektor - 1.0 (evakuasiya və ocaqlı dezinfeksiya üzrə)

*Ünvan: H.Əliyev pr. 32. Tel: (02220)5-21-44*

### Su nəqliyyatında Gigiyena və Epidemiologiya Mərkəzi

Həkim-epidemioloqun köməkçisi - 2.0
Feldşer-laborant - 4.0
Sanitar-feldşer - 3.0

*Ünvan: M.Müşfiq küç., 12, məh. 501. Tel:510-64-26*

### Şirvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi

Həkim-epidemioloqun köməkçisi - 1.0
Sanitar-feldşer - 1.0
Təlimatçı-dezinfektor- 1.0
Tibbi-statistik - 1.0

*Ünvan: N.Nərimanov küç., 2. Tel: (02121) 5-34-36*

### 4 nömrəli Uşaq Somatik Sanatoriyası

Tibb bacısı (qardaşı) - 1.0(fizioterapiya və tibbi bərpa kabineti)
Tibb bacısı (qardaşı) - 3.0
Tibbi-statistik - 1.0

*Ünvan: Şüvəlan qəs. Tel: 454-13-07*

### ATU-nun Tədris Cərrahiyyə Klinikası

Tibb bacısı (qardaşı) - 5.0

*Ünvan: Mirqasımov küç. 2, Tel: 440-01-26*

### Naftalan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi

Entomoloqun köməkçisi - 1.0
Sanitar-feldşer- 1.0

*Ünvan: Ş.Qurbanov küç., 2. Tel: (02235) 2-31-45*

Baş redaktor: N.MƏCİDOVA
Baş redaktorun müavini: S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi: Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: B92
Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@health.gov.az
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065 Tiraj: 19000


Pantec-DSR
Pantoprazole 40 mg
Domperidone 30 mg
GÜCLÜLƏR ARASINDA LAYİQLİ!
Pantec-DSR
Delayed Release Pantoprazole Sodium & Domperidone SR Capsules
V Mükəmməl kombinasiya
V Stabil, üzunmüddətli ikili təsir
V Rahat, birdəfəlik qəbul
V Yüksək təhlükəsizlik profili
Concept Pharmaceuticals Ltd.


RABELOC
Rabeprazole 20 mg
RABELOC 20
Uzunmüddətli antisekretor aktivlik
Digər dərman preparatları ilə qarşılıqlı təsirdə minimal risk
Rahat istifadə qaydası
Ona güvən, rahat ol!
CADILA PHARMACEUTICALS LIMITED


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının Respublikamızda yeganə distribütoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az